Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 92** **QƏRAR** **Bakı şəhəri, 25 fevral 2016-cı il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 18 iyun tarixli 106 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında

"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1285-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 567 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 18 iyun tarixli 106 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 542; 2006, № 11, maddə 1003; 2009, № 1, maddə 22; 2013, № 6, maddə 761; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 22 dekabr tarixli 398 nömrəli qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 6.1-ci bəndin ikinci və üçüncü cümlələrində "sahiblərinə" sözü "mülkiyyətçilərinə" sözü ilə əvəz edilsin.
2. 6.2-ci və 6.5-ci bəndlər ləğv edilsin.
3. 6.3-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Cəmiyyətin səhmdarlarının reyestri mərkəzi depozitar tərəfindən aparılmalıdır.".

4. 7.2-ci bənddə "sahibi olan səhmdarın" sözləri "mülkiyyətçisinin" sözü ilə əvəz edilsin.
5. 7.3-cü bənddə "sahibi" sözü "mülkiyyətçisi" sözü ilə əvəz edilsin.
6. 7.4.2-ci yarımbənddə "reyestr saxlayıcısına" sözləri "mərkəzi depozitara" sözləri ilə əvəz edilsin.
7. 8.4-cü bəndin birinci cümləsində "sahiblərinə" sözü "mülkiyyətçilərinə" sözü ilə əvəz edilsin.
8. 9.1.6-cı yarımbənddə "istiqraz vərəqələrinin" sözləri "istiqrazların" sözü ilə əvəz edilsin.
9. 9.10-cu bənddə, 9.11-ci bəndin üçüncü cümləsində və 9.12-ci bəndin ikinci cümləsində "sahibləri" sözü "mülkiyyətçiləri" sözü ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***